# Şairin poetik düşüncələri

Allahverdi Eminovun “Əllərimdə tale yazım” kitabının ilk səhifələrində tarixə qısa, mənalı, ibrətamiz ekskursdan sonra Kamal Alışoğlunun poeziyasında bir sıra xüsusiyyətlər, təzadlı düşüncələr poetik fraqmentlərlə tamamlanır. Bununla yanaşı, kitab boyu oxucu müəlliflərin təqdimatında Alışoğlu poeziyası, prozası və bədii təsvir vasitələri ilə zəngin olan publisistikasında yeni-yeni obrazlar, assosiativ məqam və ovqatları da böyük həssaslıqla duyurlar.

Alışoğlunu narahat eləyən bütün neqativ təzahürlər mahiyyət etibarilə hər birimizin təztez rastlaşdığımız, şahidi olduğumuz mənzərələr daşdığımız ictimai ağrılardı.

*...Kimisi bir tikə çörəyə möhtac,*
*Kimisi ölkəni çapar, talayar.*

*...İstəyirəm əlçimlənim,*
*Sal darağa, dara məni.*

*Kövrək bir ağacdır, o sına bilmir,*
*Sınanda əbədi sınar qocalıq* - və s. bu kimi misralarında hər şeydən əvvəl şairin narahatlığını, həyəcanının bədii ifadəsini təqdim edir. Müəllif bu fikirlərin arxasınca bəzən mövzunun ahəngi ilə səsləşdiyindən keçən əsrin 80-ci illərini, bir neçə gənc istedadla - Əbülfəz Naxçıvanlı, Hafiz Rüstəm, Əlislam Bilal, Elşad Səfərli, Ədalətin Kamal Alışoğlu ilə bir kollektivdə işlədiyi vaxtları yada salır, yeri düşdükcə onlara məsləhət, tövsiyə verdiyini də xatırlayır. Bəzən adama elə gəlir ki, müəllif uzun illər ona rahatlıq verməyən müəyyən fikirləri Kamal Alışoğlunun yaradıcılığına istinadla oxucuya çatdırmaq istəyir. Bu mənada Allahverdi Eminovun ödənişli orta məktəblər, gənc nəslin tərbiyəsi, fəzilət və qəbahət, hətta bəlağət və fəsahətlə bağlı fikirləri Kamal Alışoğlunun yazdıqlarına birbaşa aid olmasa da, dolayısı ilə onun yaradıcı fərd kimi tutduğu fəal həyat mövqeyilə səsləşir.

Gənc nəslin tərbiyəli, intizamlı, xoşbəxt böyüməsi üçün valideynlərin münasib işlə təmin olunmaları, qanunların hamı üçün eyni mahiyyət kəsb etdiyini, maddi təminatların ödənilməsinin vacib olduğunu deyən müəllif, kimliyindən asılı olmadan hər bir vətəndaşa vətənpərvərlik ruhunun aşılanmasını və nəhayət, təhsilin azadlıq prinsipi üzərində qurulmasını da diqqətə çatdırır. Qeyd etmək lazımdır ki, bir ziyalı kimi Kamal Alışoğlunu da bu və digər problemlər həmişə ciddi şəkildə düşündürüb. Bütün bunlar K.Alışoğlunun poetik yaradıcılığında ciddi, obrazlı şəkildə təsvir olunmuşdur.

Ümumiyyətlə, Kamalın çoxsaylı uğurlu misraları, şeirləri bir monoqrafiya-esseyə, bir sanballı kitaba sığışmaz, elə götürək onun ilk baxışda adi görünən “bir ürək tələsər gəlin olmağa” misrasını. Təbii, obyektiv-bioloji istək-tələbatın, gənclik həvəsilə ismətin, insanın bütün pozitiv məqamlarda zamanı qabaqlamaq arzusunu yığcam, lakonik şəkildə çatdırmaq cəhdi və buna nail olması, əlbəttə, şairin poetik uğuru, yenilik baxımından bədii tapıntısı kimi qeyd edilməlidir. Bütün gənc qızlar xoşbəxt olmaq, gəlin olmaq, ana olmaq istəyirlər və bu hissin təbiiliyi qətiyyən şübhə doğurmadığı kimi, həmin fikrin uğurla bədii-poetik ifadə imkanlarının hər şairə nəsib olmadığı da şəksizdir.

Bu dünyanın sonsuz sayda cavabsız sualları şairə:

*...Dağlar qəlbim kimi kövrəlib yaman,*
*Dəyişib çöl-çəmən, dəyişib hər yan,* - kimi misralar yazdırır və payız nəğməsi - toydüyün, bərəkət, eyni zamanda köç nəğməsi oxuyan quşlar onun diqqətindən kənarda qalmır.

Müəllif yeri gəldikcə, yaxud uyğun bildikcə, bir neçə şairin şeirlərinə də müraciət edir. Və maraqlıdır ki, müəyyən məqamda şair Vahid Əzizin.

“Paslı və dolu bir silah kimi
Sinəmə sıxdım həsrətimi” misralarını xatırladır və bundan sonra fikrini
“Burda ömür sürər əriməyən qar,
Bura qartalların harayı çatmır”, - sözlərilə tamamlayır.

Allahverdi Eminovun yaradıcılığı çoxşaxəli olduğu kimi, yaradıcılıqlarına müraciət etdiyi sənətkarların ədəbi irsi də çox istiqamətlidir. Onların sırasında Səməd Vurğun, Mir Cəlal, İsmayıl Şıxlı, Musa Yaqub, Oqtay Rza, Adil Cəmil kimi sənət adamlarının, bədii təfəkkür sahiblərinin yaradıcılıqlarına bələdliyi, dərindən nüfuz etməsi, onların haqqında orijinal fikirləri, kitablarında, məqalələrində sənətkarlıq məsələlərinə müstəsna yer ayırması müəllifin ciddi alimlərdən biri kimi ədəbi zövqünü, potensialını və konseptual yanaşma tərzini, məsuliyyətini göstərir. Bu mənada onun Kamal Alışoğlu yaradıcılığına müraciəti ilk olaraq obyektiv reallıqdan yaranmış, həm də şairin yaradıcılığına obyektiv qiymət vermək baxımından bizdə razılıq doğurur. Çox təəssüf ki, bir çox ədəbiyyat, sənət adamları müxtəlif səbəblərdən ədəbi tənqidin diqqətindən kənarda qalır. Əlbəttə, bu qəbuledilməz haldır, ilk növbədə o səbəbdən ki, hər bir yaradıcı insanın ədəbi məhsulu oxuculara ünvanlanır. Belə əsərlər daim ədəbi tənqidin diqqətində qalmalıdır.

Kitabda bir-birini tamamlayan, daha da dolğunlaşdıran xatirələrin çox hissəsi nostalji hisslərlə bağlıdır, burada müəllifi həyəcana gətirən, duyğulandıran anadır, Vətəndir, onlara bəslənilən böyük sevgidir. Fəsillərin bir-birini əvəzləməsi ilə bağlı poetik-assosiativ fikir və mülahizələr, həyati müşahidələr, təbii ki, məşhur filosofların, müdrik söz xiridarlarının hikmətli fikirlərilə daha anlaşıqlı, təsiredici və mötəbər səslənir.

Müəllif yazır: “Dünya anlamı Kamal Alışoğlunda əxlaqi fəzilətlərlə paralel gedir, tərənnümü tapır”. Və az sonra məşhur alman filosofu A.Şopenhauerin əsərlərindən birini “Dünya iradə və təsəvvür kimi” adlandırmasının təsadüfi olmadığını bildirir.

Kitabda Kamal Alışoğlunun məhəbbət mövzusunda yazdığı şeirlərə xüsusi diqqət var. Müəllif haqlı olaraq göstərir ki, şairin məhəbbət şeirləri əsasən xatirə-yaddaş xətti üzərində qurulsa da, misralar ah-ufdan kənarda dayanmışdır”. Bu, bəlkə də ona görədir ki, romantik poeziyada “ah-uf” şeirləri Füzuli yaradıcılığında pik nöqtəsinə çatmış, yəni öz fəlsəfəsini yarada bilmişdi. Buna baxmayaraq, müəllif Kamal Alışoğlunun şeirləri içərisində də poetik kamillik baxımından uğurlu olan xeyli misralara diqqət yönəldir:

*“Sevincim gözümdə sönən ocaqdı”,*
*“Bu ömürdən bir sənsizlik dərildi”,*
*“Gecə də, gündüz də ürəyimdəsən”,*
*“Bir anlıq həyatda sən mənim idin”,*
*“Zəng elə içimdə çiçəkləyəsən”*
*“Bir anlıq yox oldu dünya boyda həsrətim”*
və s.

Monoqrfiyada müəllif Kamal Alışoğlunun irfani şeirlərinin təhlilinə kifayət qədər yer ayırıb və ilk olaraq “Min şükür, Allah” şeirinə müraciət edir:

*... Qoşa yaratmısan sevək, sevilək,*
*Yox olaq, yenidən dünyaya gələk.*

Etiraf etmək lazımdır ki, şairin yaradıcılığına yenidən, bir daha, əvvəlki mütaliələrdən keyfiyyətcə xeyli, fərqli müraciətin zəruriliyini anlayıb təsdiqləməkdə “Əllərimdə tale yazım” kitabı mühüm rol oynayır.

Adətən poeziya daha çox insan mənəviyyatı, sevgi, narahatlıq, əzab, intizar və s. məqamların bədii biçimdə oxucunun “əyninə yoxlanması” kimi anlaşılırsa (şübhəsiz, xeyli sayda fərqli poetik örnəklər göstərmək də olar), proza insan və təbiət, ekoloji problemlərə fəal müdaxilə, yazıçının dinamik həyat mövqeyi, qlobal düşüncə fonunda onun obrazlı müşahidələrinin sənətkarlıqla ümumiləşdirilməsi cəhdi, təşəbbüsüdür. Və poeziya da, proza da ən adi həyati reallıqlara, gerçəkliklərə münasibətdə, onun oxucuya çatdırılmasında yalnız müəllifin görə bildiyi gözəlliyi, ürək çırpıntılarını, nifrəti, eləcə də ağrını, təzadlı məqamları yüksək bədii səviyyədə təqdim etməklə məşğuldur.

Bu mənada Allahverdi Eminovun “Sürəkçi” haqqında yazdığı qeydlər maraq doğurur. Hekayədə təbiət, onun gözəlliyi ilə insan xarakterinin harmoniyası verilir, amma hansısa psixoloji vəziyyətdə, daha doğrusu kontraslı situasiyada: Səhərki buludlar parçalanıb dağılmışdı. Göyün üzü ayazımışdı. Günəş Sarıyalın üstündən projektor işığı kimi öz şüaları ilə Üçqardaşın quzeyini işlandırırdı. Zəmi yerinə sanki ulduzlar səpələnmişdi”. və s.

Müəllif, Kamal Alışoğlunun “Qocalığın son gecəsi”, “Sürəkçi”, “İyirmi il və bir gün” “İnam”, “Məsləhət”, “Qayğı” hekayələrində ümumən, nəsr yaradıcılığında “xarakter yaratmaq duyumu güclüdür” qənaətindədir.

Kamalın “İnam” hekayəsində yuxunun oynadığı rolu, Mürsəlin yuxusunun onda inam yaratdığını və hekayənin adının da bununla bağlı olduğu fikrini bildirən müəllif “Əllərimdə tale yazım” monoqrafiya-essenin ruhu, ovqatı baxımından ciddi maraq doğurduğundan diqqətimizin məhz bu məsələyə yönəlməsinə nail olur.

“Leyləklər yuvalarını tərk edirlərmi” irihəcmli publisistik məqalədə qubadlıların möhkəm dayanaraq bir addım da geri çəkilmədiyi vaxtları təəssübkeş ziyalı narahatlığı, eyni zamanda yaradıcı nikbinliyilə oxucularına çatdırır, bizə “qaranlıq tunelin sonunda işıq”dan xəbər verir.

“Avtobus dayanacağında saatlarla minik gözləyənlərə rahat maşınlarda gəlib-keçənlərin necə həqarətlə, yuxarıdan-aşağı baxdıqlarının çox şahidi olmuşam. Yağışlı, küləkli günlərdə pəncərənin şüşələrini qaldırıb küçələrdə belədən-belə şütüyən, baxışlarından, sükan arxasında oturuşlarından müştəbehlik yağan bələləri yadıma düşdükdə, oturduğum maşında özümü narahat hiss edirdim. Silgəclərin aramsız sağa-sola təmizlədiyi yağış damcıları yanaqdan axan göz yaşları kimi şüşənin kənarlarından süzüldükdə, içimdəki üşəntidən özüm də hiss etmədən bir az büzüşürdüm. Belə bir havada 7-8 rayondan didərgin salınmış insanların taleyi, aqibəti, həyat şəraiti gözlərimin önündən keçirdi”.




Müəyyən mənada tipik olan bu bədii-publisistik parça “Çöllükdə şəhər” məqaləsindəndir. Müəllif qeyd edir ki, yazı “sənətkarlıq və zəngin müşahidəçilik əsasında yazılmış, “Ədəbiyyat qəzeti”ndə işıq üzü görmüşdür”.

Doğrudan da, Kamal Alışoğlunun həssaskövrək təbiətindən, təbiət hadisələrindən təsirlənməsindən yaranan poeziyası, iti müşahidəçilik qabiliyyətindən, ümumiləşdirmə bacarıqistedadından, doğma dilimizin çalarlarını dərindən bilməsindən rişə alan dolğunlaşan hekayələri, nəhayət, fəal həyat mövqeyinin, vətəndaşlıq qayəsinin bədii-məntiqi nəticəsi kimi meydana çıxan publisistikası, təbii ki, K.Alışoğlunun yaradıcılıq diapazonunun genişliyi və zənginliyindən xəbər verir. Sənətkarlar həmişə insan və təbiət, insan və cəmiyyət harmoniyasından (bəzi hallarda qarşıdurmasından) bəhs ediblər. Sonralar bu sıraya insan və din də daxil olub, ancaq təəssüf ki, üçüncü mövzuya çox vaxt mahiyyətinə görə yox, müəyyən zümrənin mənafeləri baxımından yanaşıblar və nəticədə ali dini təhsil görmüş Nəsimi, S.Ə.Şirvani kimi şəxsiyyətlərlə yanaşı, tarixə xeyli işıqlı insanların repressiya qurbanları kimi düşdüklərini də xatırlamalı oluruq. Bu mənada Kamal Alışoğlunun ilk iki mövzunu əsas sayması şəksizdir. Məncə, Homerdən üzü bəri bütün böyük sənətkarlar nəinki dini mövzulara ötəri yanaşıblar, əslində, çox güman ki, ondan daha çox fon kimi istifadə eləyiblər. Folklor, miflər traktatlar insanın təbiət və cəmiyyət haqqındakı düşüncələrinin getdikcə durulaşıb saflaşması ilə bağlı olmuş, onunla nəticələnmişdir.

Allahverdi Eminovun Kamal Alışoğlunun poeziyasına, prozasına və qismən də publisistikasına həsr etdiyi monoqrafiya - esse kitabı şair üçün şeiriyyətin nə olduğundan başlamış, poetik, obrazlı deyimlərlə zəngin misra, şeirlər, konkret örnəklər, daha sonra poeziyanın nəzəri məsələləri, strukturu, şeirdə rəng, daha irihəcmli janra-poemaya münasibət, nəsrə keçidin zərurəti, yazıçı üçün yazı masasının nə olması ilə bağlı məzmunlu, dolğun və ən önəmlisi - səmimi, obrazlı müxtəlif etiraflarla dolu dialoqu ilə yekunlaşır.

Çağdaş poeziyamızın, prozamızın məzmun, mündəricə, poetika baxımından inkişafında özünəməxsus rolu, yeri, dəst-xətti ilə diqqət çəkən Kamal Alışoğlunun yaradıcılığından bəhs edən “Əllərimdə tale yazım” kitabı ilə Allahverdi Eminov özünün çoxillik elmi-pedaqoji və naşirlik fəaliyyətinin məntiqi - intellektual yekunu kimi növbəti uğurlu elmi-tənqidi mülahizələrini, qənaətlərini, eləcə də zəngin orijinal fikirlərini ümumiləşdirmişdir. Zənnimcə, oxucular məhsuldar alimdən, eləcə də istedadlı şairdən yeni, daha maraqlı əsərlər gözləməkdə haqlıdırlar.

**Vaqif ƏJDƏROĞLU.**